

# Aylıq xəbərlərin icmalı
# Avqust 2022

## Mündəricat


- Azərbaycanda elan saytlarında yeni dələduzluq üsulları yaradılıb
- Azərbaycanın elektron informasiya ehtiyatlarına kiberhücumlar gözlənilir
- Azərbaycanın bir sıra dövlət qurumu və banklara kiberhücumlar olub
- Azərbaycan internetin sürətinə görə geriləyib


## Azərbaycan

### Azərbaycanda elan saytlarında yeni dələduzluq üsulları yaradılıb

Azərbaycanda elan saytlarının vasitəsilə son vaxtlar yeni dələduzluq üsulu yayılıb.

Belə ki, elan saytlarında satışa qoyulan əşyaları almaq üçün satan şəxsə xarici nömrələrdən mesajlar gəlir. Lakin bu dəfə dələduzlar belə hallarda çox istifadə olunan ənənəvi olaraq kart məlumatı istəmirlər. Onlar müştəridən məhsulu almaq üçün şəxsiyyət vəsiqənizi istəyir, əldə etdikdən sonra FIN kodunuz vasitəsilə bir-bir mobil bankların tətbiqlərində şifrə bərpa

əməliyyatları edib, müştərisi olduğunuz bankı tapırlar. Bundan sonra isə bank tətbiqi dələduzun əlinə keçir və dələduz hesablarınızın hamısına giriş edərək "card to card" əməliyyatlara başlayır.

Mənbə: xeberler.az, 02 Avqust, 2022

Back to top

## Azərbaycanın elektron informasiya ehtiyatlarına kiberhücumlar gözlənilir

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter İnsidentlərinə Qarşı Mübarizə Mərkəzindən (XRİTDX) ölkəmizin elektron informasiya resurslarına qarşı genişmiqyaslı kiberhücumlar hazırlanması barədə məlumat verilib.

XRİTDX dövlət və qeyri dövlət informasiya resursları inzibatçılarını, eləcə də fişinq tipli hücumlara qarşı vətəndaşlarımızı diqqətli və ayıq olmağa çağırır.

Mənbə: xeberler.az, 05 Avqust, 2022

Back to top

## Azərbaycanın bir sıra dövlət qurumu və banklarına kiberhücumlar olub

XRİTDX tərəfindən verilən məlumata görə, bir sıra dövlət qurumları və banklar irimiqyaslı kiberhücumlara məruz qalıb.

Bu barədə ötən həftə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi (KİMM) Azərbaycanın elektron informasiya ehtiyatlarına qarşı genişmiqyaslı kiberhücumların gözlənildiyi barədə xəbərdarlıq yaymışdı.

Mənbə: xeberler.az, 08 Avqust, 2022

Back to top

## Azərbaycan internetin sürətinə görə geriləyib

Bu ilin iyul ayında Azərbaycan mobil internetin sürətinə görə digər ölkələr arasında 2 pillə geriləyib və 31,21 MB/S sürətlə 60-cı pillədə qərarlaşıb.

Məlumatda deyilir ki, ötən ay Azərbaycan sabit genişzolaqlı internetin orta sürətinə görə dünyada 121-ci yerdə qərarlaşıb ki, bu da iyun ayı ilə müqayisədə 3 pillə geriləmədir.

Mənbə: xeberler.az, 17 Avqust, 2022

Back to top

MAKING AN IMPACT THAT MATTERS Since 1845

deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 345,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

8 Noyabr pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası

© 2022 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.